*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 noyabr 2016-cı il № 86 (2101) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

*Dağlıq Qarabağda - Xankəndidə, Şuşada bayraq meydanları yaradılacaq, Azərbaycanın üçrəngli bayrağı həmin ərazilərdə daha əzəmətlə dalğalanacaq.*

## 9 Noyabr Dövlət Bayrağı Günüdür




*25 ildir ki, Azərbaycan müstəqilliyini bərpa edib, bu yolda inamla addımlayır. Ötən əsrin əvvəllərində, 1918-ci ildə də xalqımız azadlıq qazanmışdı, amma istiqlalımızın ömrü çox qısa olmuşdu - cəmi 23 ay. Azərbaycan Xalq Cümhuriyyəti qısa zaman ərzində mövcud olmasına baxmayaraq, hökumətin qərarı ilə 1918-ci il noyabrın 9-da tariximizdə ilk dəfə üçrəngli bayrağımız dövlət rəmzi kimi qəbul olundu.*

1990-cı ildə Azərbaycanda yenidən müstəqillik uğrunda milli-azadlıq hərəkatı gücləndi və ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə ilk olaraq Naxçıvan Muxtar Respublikasında üçrəngli Azərbaycan bayrağı inzibati binaların üzərində dalğalandırıldı. 1991-ci il fevralın 5-də Azərbaycanda ali qanunvericilik orqanının qərarı ilə bu bayraq dövlətin rəmzi kimi təsdiqləndi.

Bayraq müstəqilliyimizin əsas rəmzlərindən biridir və dövlətinə, xalqına sədaqəti olan hər kəs daim bayrağına da hörmət və ehtiram nümayiş etdirir. Həmişə Dövlət himnimizi oxuyanda "Üçrəngli bayrağınla məsud yaşa" sözləri qəlbimizi riqqətə gətirir. Əlbəttə, müstəqillik böyük səadətdir, hər xalqın mövcudluğunu, tanınmasını ifadə edən mühüm məfhumdur. Bu gün qürurvericidir ki, lap kiçik yaşlarından hər vətəndaşımız bayrağımıza sonsuz sevgilərlə böyüyür. Beynəlxalq tədbirlərdə, idman yarışlarında nüfuzlu ölkələrin bayraqları ilə bir sırada öz bayrağımızı görəndə, doğrudan da, adamın qəlbi iftixarla döyünür. Bayrağımızda təsvir olunan rənglər türkçülüyün, islamçılığın və müasirliyin ifadəsi olmaqla xalqımızın bəşəri dəyərlərə sadiqliyini və müasir sivilizasiyanın öncüllərindən olduğunu göstərir.

Bayrağa sonsuz sevgimiz müstəqil Vətənimizə bir övlad istəyimizdən qaynaqlanır. Öyünməyə haqqımız var ki, bu gün güclü müstəqil dövlətin vətəndaşlarıyıq. Böyük mübarizələr nəticəsində əldə olunan müstəqilliyimizi daha da möhkəmlətmək və onu qoruyub saxlamaq əsas borcumuzdur. Canı, qanı ilə Vətənə bağlı olan insan bu yolda bütün sınaqlara hazır olmalı, son nəfəsinədək mübariz olmağı bacarmalıdır.

(Ardı 3-cü səhifədə)



"Amalım və məqsədim Vətənin müdafiəsində dayanmaqdır"

3-cü səhifədə



Vətənin cəsur müdafiəçiləri

4-cü səhifədə



Ən yaxşı artilleriya taqımı

5-ci səhifədə



Döyüş növbətçiliyi

7-ci səhifədə

# Hərbi Hava Qüvvələrinin hərbi hissəsində yeni yaşayış kompleksi istifadəyə verilib



*Silahlı Qüvvələrimizin təminat və təchizatını müasir tələblər səviyyəsinə qaldırmaq məqsədilə görülən işlər ordumuzun dövlət qayğısı ilə əhatə olunduğunu, güc və potensialını xeyli artırdığını əyani surətdə nümayiş etdirir. Silahlı Qüvvələrimizə məxsus bütün qoşun növlərində bilavasitə döyüş hazırlığı ilə bağlı işlərlə yanaşı, şəxsi heyətin sosial-məişət problemlərinin həllinə də yetərincə qayğı göstərilir. Bu günlərdə Hərbi Hava Qüvvələrinin tabeliyindəki radiotexniki hərbi hissənin ərazisində yeni yaşayış kompleksinin istifadəyə verilməsi dediklərimizə sübutdur. Müdafiə naziri general-polkovnik Zakir Həsənov yaşayış kompleksinin açılışında iştirak edib.*

Ordumuzun daha da gücləndirilməsi və döyüş potensialının artırması üçün ayrılan vəsait hesabına hərbi hissələrimizdə nəzərə çarpan böyük dəyişikliklər baş verib. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatında deyildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.

Son illərdə Silahlı Qüvvələrimiz böyük inkişaf yolu keçmiş, dövlət rəhbərliyinin qayğısı və diqqətilə onun maddi-texniki bazası xeyli yenilənib və genişləndirilib.

Qısa zaman kəsiyində neçə-neçə yeni və müasir imkanlara malik hərbi şəhərcik salınıb. Təkcə arxa cəbhədə deyil, cəbhə bölgəsində təmas xəttinə yaxın ərazilərdə də şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün böyük layihələr həyata keçirilib. Bu şəhərciklərdə hərbi hissələrin şəxsi heyəti üçün xidmət və yaşayış baxımından bütün imkanlar yaradılıb. Təbii ki, belə şəraitdə döyüş hazırlığının yüksəldilməsi üçün görülən tədbirlər daha səmərəli olur.





Silahlı Qüvvələrimizdə aparılan quruculuq işləri bütün qoşun növlərini əhatə edir. Quru qoşunları ilə yanaşı, Hərbi Dəniz və Hərbi Hava qüvvələrində inşa edilmiş müasir hərbi şəhərciklər ölkə rəhbərliyinin ordu quruculuğuna verdiyi önəmin bariz ifadəsidir.

Hərbi Hava Qüvvələrinə məxsus hərbi hissədəki yeni yaşayış kompleksi də şəxsi heyətin xidməti fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırılmasında önəmli rol oynayacaq. Müdafiə naziri general-polkovnik Zakir Həsənov yaşayış kompleksinə baxış keçirərkən ərazidəki qərargah, əsgər yataqxanası, yeməkxana, qazanxana, ərzaq anbarı, tibb məntəqəsi, sıra meydanı, eləcə də digər xidməti və inzibati otaqlardakı şəraitlə yaxından tanış olub. Yaradılmış şərait aviatorların xidməti fəaliyyətini, döyüş hazırlığı prosesini müasir tələblərə uyğun qurmağa imkan verəcək.

Komanda məntəqəsində döyüş növbətçiliyinin daha yüksək səviyyədə aparılması ilə bağlı tapşırıqlarını verən Müdafiə naziri general-polkovnik Zakir Həsənov radiolokasiya sistemlərinə də baxış keçirib.

Hərbi qulluqçuların döyüş fəaliyyəti, sosial-məişət və xidməti şəraiti ilə maraqlanan Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birgə nahar edib.

**"Azərbaycan Ordusu", fotolar çavuş Vüsal HƏMİDOVUNDUR**

# Cəbhə bölgəsində zirehli texnikaların döyüş atışlı təlimləri başlayıb

*Silahlı Qüvvələrin 2016-cı il üçün hazırlıq planına uyğun olaraq, tank və piyadaların döyüş maşınları heyətlərinin hazırlıq səviyyələri yoxlanılır.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhə bölgəsində yerləşən hərbi poliqonlarda keçirilən təlim məşqlərinin əsas məqsədi tank və digər zirehli texnika bölmələrinin döyüş qabiliyyətlərinin artırılması, şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsi, döyüş ruhu və mənəvi-psixoloji durumun yüksəldilməsindən ibarətdir.

Gündüz və gecə vaxtlarında döyüş vəziyyətinə maksimal uyğunlaşdırılmış şəraitdə keçirilən təlim məşqlərində bölmələr birbaşa təyinatları üzrə qarşıya qoyulan tapşırıqları icra etməklə zirehli texnikalardan praktiki atışları yerinə yetirirlər.



Heyət üzvlərində düşmənin döyüş texnikası barədə real təəssüratlar yaratmaq məqsədilə müxtəlif məsafələrdə quraşdırılmış hədəflər sırasında aprel döyüşləri zamanı məhv edilmiş erməni tanklarının korpuslarından da istifadə olunur.

# Üçrəngli bayrağınla məsud yaşa, Azərbaycan!

(Əvvəli 1-ci səhifədə)



Ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətinin müxtəlif dövrlərində Azərbaycanda dövlətçiliyin inkişaf etdirilməsi naminə apardığı məqsədyönlü islahatlar onun siyasi kursunun yetirməsi, Prezident İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Siyasi və iqtisadi, həmçinin hərbi sahədə möhkəmlənən dövlətimiz beynəlxalq miqyasda güc sahibinə çevrilib. Məhz ölkə başçısı Dövlət bayrağımıza hörmətin bariz nümunəsi olaraq 2009-cu il noyabrın 18-də Dövlət Bayrağı Günü təsis edilməsi haqqında sərəncam imzalayıb. Bununla da hər il xalqımız 9 Noyabr tarixini əsl bayram təntənəsi ilə qeyd edir. Əslində, bu günün seçilməsi təsadüfi deyil, çünki Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalqımız ilk dəfə istiqlaliyyət qazananda, hökumətin qərarı ilə noyabrın 9-da üçrəngli bayrağımız dövlət rəmzi elan olunmuşdu. Bu, dövlət rəhbərimiz tərəfindən tarixi ənənələrimizə göstərilən sədaqət və ehtiramıdır. Xalqımızın azadlıq və istiqlaliyyət sevgisi Dövlət Bayrağı Meydanında əzəmətlə ucalan möhtəşəm görünüşə malik bayrağımızda gözəl təcəssüm olunub. Bu bayraq paytaxtın hər bir guşəsindən böyük sevgi ilə seyr edilir. İstirahət və bayram günlərində nəinki öz vətəndaşlarımız, hətta ölkəmizə gələn turistlər, qonaqlar da Bayraq Meydanını və burada yaradılmış muzeyi ziyarət edirlər.

Bayrağımızla bağlı xoş anları bu ilin aprel döyüşlərindən sonra Lələtəpə yüksəklikliyində də yaşadıq. Həmin yüksəklikdə dalğalanan Azərbaycan bayrağı, əslində, düşmənlərimizə anlatdı ki, vətənpərvər əsgər və zabitlərimizin hünəri ilə bu bayraq tezliklə işğaldan azad ediləcək bütün ərazilərimizdə ucalacaqdır. Əgər ərazi bütövlüyümüz sülh yolu ilə bərpa olunmayacaqsa, onda son söz Azərbaycan əsgərinindir. Müdrik Ali Baş Komandanına və xalqının dəstəyinə güvənərək Lələtəpəyə bayraq sancan oğullarımız, Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, tezliklə Şuşada, Xankəndidə və digər ərazilərimizdə də üçrəngli bayrağımızı dalğalandıracaqlar.

Azərbaycanın müstəqil dövlətçilik rəmzi olan bayrağımız qürur və iftixar mənbəyimizdir. Nə qədər ki, müstəqil Azərbaycan yaşayır, bayrağımız da başımız üzərində inamla dalğalanacaq və bizə dövlətçiliyimizin sonsuz ququrunu yaşadacaq.

Üçrəngli bayrağınla məsud yaşa, Azərbaycan!

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanla Pakistan arasında ikitərəfli hərbi əməkdaşlıq Planı imzalanıb

*Müdafiə Nazirliyinin nümayəndə heyəti "Azərbaycan-Pakistan İşçi Qrupunun 7-ci Görüşü"ndə iştirak etmək məqsədilə Pakistan İslam Respublikasına səfər edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüş zamanı ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyəti və perspektivləri, eləcə də görüləcək birgə tədbirlər nəzərdən keçirilib.

Tədbirin yekununda Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Pakistan İslam Respublikasının Birləşmiş Qərargahı arasında ikitərəfli hərbi əməkdaşlıq Planı imzalanıb.

Qeyd edək ki, yüksək rütbəli heyətlərinin iştirakı ilə İşçi Qrupunun görüşü hər il növbəli qaydada Azərbaycanda və Pakistanda keçirilir.

*Medallı igidlərimiz*

# “Amalım və məqsədim Vətənin müdafiəsində dayanmaqdır”

*Leytenant Mehdi Pircanov ömrünü Vətənimizin müdafiəsinə həsr edib. Onunla tankçılar kollektivində tanış olduq. Nümunəvi zabitlərdən söz düşəndə bacarıqlı tankçı haqqında ağızdolusu danışdılar. Gənc zabit barəsində qeydlər götürmək qərarına gəldim.*



- Mən zəhmətkeş ailəsində doğulub böyümüşəm, - leytenant Mehdi Pircanov deyir. - Hərbi xidmətin öz çətinlikləri var, amma bunlar məni peşə seçərkən çəkindirmədi. Əbəs yerə demirlər ki, hərbi peşədən şərəfli peşə yoxdur. Həm də ailədə vətənpərvər ruhda aldığım tərbiyə hərbi xidməti davam etdirməyimdə önəmli rol oynayıb.

Əsgər kimi xidmətini başa vurandan sonra şabranlı gənc xidmətini davam etdirmək qərarına gəlib. Atalar demişkən: niyyətin hara, mənzilin ora.

O zaman Mehdi gizirlər kursuna getmək istədiyini bildirəndə atası Pircan ona xeyir-dua vermiş, oğlunun qərarını alqışlamışdı. Vətənpərvər valideynlərin övladı da yurdsevər olur.

Pircanov həmişə məsləhətləri, tövsiyələrilə ona dayaq olan atasını, təəssüflər olsun ki, vaxtsız itirib. Amma valideyninin adına layiq olmağı, vaxtilə verdiyi öyüdlərə həmişə sadiq qalmağı özünün mənəvi borcu hesab edir.

Gizirlər məktəbini bitirdikdən sonra o, xidmətini doğma hərbi hissədə tankçı kimi davam etdirdi. Təxminən 10 il tank komandiri kimi heyətlə birlikdə bölmənin döyüş hazırlığının yüksəldilməsində əlindən gələni əsirgəmədi.

Kollektiv o qədər doğmalaşıb ki, hamı bir-birinə eyni ailənin üzvü kimi münasibət göstərir. Təbii ki, hərbi kollektivdə mövcud olan sağlam mühit xidmətin gedişinə, döyüş hazırlığının yüksəldilməsinə də yetərincə təsir göstərir.

Xidmətə münasibətini, çalışqanlığını, silahdaşları arasında hörmətini nəzərə alan komandanlıq 2015-ci ilin yanvarında Mehdini ehtiyat zabit hazırlığı kursuna göndərməyi qərara alır. Mahir tankçı isə bu ehtimadı doğruldacağına söz verir. Və sözünün üstündə durur. İlk zabit paqonuna layiq görüldükdən sonra taqım komandiri təyin edilir. Onun taqımı yenə tankçılar kollektivinin ən yaxşılarından olur.

Şəxsi heyətin içindən çıxması, gizirlikdən zabitliyə yüksəlməsi kollektivi daha yaxşı başa düşməyə və ümumi fəaliyyətə yardımçı olur.

Nümunəvi xidməti nəzərə alınan kiçik leytenant Pircanov avqustda leytenant rütbəsinə layiq görülür. Hazırda Mehdi vəzifədə də bir pillə irəli çəkilib və bölük komandiri vəzifəsini yerinə yetirir.

Leytenant Mehdi Pircanovun zabitliyə yolu sıravi əsgərlikdən başlanıb. "Komandir olmaq asandırmı?" - sualına leytenant belə cavab verdi:

- Əsgərlər yalnız fərdi tapşırıqlara görə cavabdehlik daşıyır. Komandir isə bütün kollektivə görə məsuliyyətlidir. Mənə xoşdur ki, indi kollektivimiz peşəkar hərbçilərdən formalaşdırılıb. Şəxsi heyət öz vəzifələrini bilir və cavabdehliyini başa düşür. Ona görə bölməni idarə etmək çətin deyil.

Bölüyün şəxsi heyəti, demək olar ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularıdır. Onlar hərbi xidmətlərini əsgər kimi başa vurduqdan sonra könüllü olaraq orduya qayıdıblar. Tankçı kimi ustalıqlarını günü-gündən artırır, verilən tapşırıqlara peşəkar hərbçi münasibəti göstərirlər.

Şəxsi heyətin ixtisas hazırlığını artırmaq üçün müntəzəm olaraq döyüş hazırlığı dərsləri keçirilir. Tankçıların peşə bacarığı davamlı olaraq yüksəldilir.

Aprel döyüşlərində leytenant Pircanov da fərqlənənlər sırasında olub və Prezident İlham Əliyev tərəfindən "Hərbi xidmətlərə görə" medalı ilə mükafatlandırılıb.

İnsanın nəyə qadir olduğu onun işi və əməli ilə ölçülür. Bütün əməllərin zirvəsi isə Vətənin müdafiəsində dayanmaqdır. Ən yüksək vətəndaşlıq Vətənə xidmətdir.

- Bütün şəxsi heyət xidmətindən razıdır. Hər kəs Vətənə xidməti ilə qürur duyur. Hamı bir nəfər kimi Azərbaycanın ərazi bütövlüyü naminə canından keçməyə hazırdır, - leytenant deyir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Gənc zabitlərimiz*

# Döyüşə hazır igidlər

*Gənclik ömrün ən qaynar çağıdır. Bu gün Azərbaycanda ürəyi qurub-yaratmaq eşqi ilə döyünən, ömrünün mənasını Vətənə, xalqa xidmətdə görən vətənpərvər nəsil yetişir. Təbii ki, seçdilən hər bir peşənin qayəsi, məna tutumu var. Müəllim, həkim, mühəndis... Fikrimcə, bu peşələrin içərisində ən müqəddəsi hərbçi peşəsidir - Vətəni qorumaq peşəsidir. Ordumuzun gənc zabitlərindən Vəlişan Əlbəndov da, Ceyhun Bayramov da bu peşəyə ürəkdən bağlanıblar.*



Leytenant Vəlişan Əlbəndov görkəmli hərbçilər, sərkərdələr yetirmiş Qazax rayonunda dünyaya göz açıb. Orta təhsilini doğma Daşsalahlı kəndində bitirdikdən sonra sənədlərini Azərbaycan Memarlıq və İnşaat Universitetinə verir. Təhsil aldığı illərdə mühəndis ixtisasına dərindən yiyələnir. Hərbi işə marağı olan gənc ixtisasına uyğun olaraq mühəndis-istehkamçı peşəsində ordumuzda xidmətə başlayır. Hazırda cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində taqım komandiri vəzifəsində uğurla xidmət edir.

Hərbi hissədə gənc zabitlə əsgərlərə dərs keçən zaman görüşürük. O, söhbətində hərbi peşəsinin əsas xüsusiyyətlərini açıqlayır: "Hərbi mühəndis-istehkamçı piyadaların döyüşdə maneəsiz hərəkətini təmin edir. Buna görə də istehkamçı daim öndə gedir. Nəzəriyyədən, təcrübədən qazandığım bilikləri əsgərlərə də həvəslə öyrədirəm. Çalışıram ki, təcrübəyə daha çox vaxt ayrılsın. Onda əsgər xidmətin xüsusiyyətlərini dərindən mənimsəyir."



- Hərbçi olmaya bilməzdim, - deyən leytenant bildirir ki, atası Əhməd Əlbəndov ermənilər torpaqlarımıza hücum edəndə döyüşlərdə iştirak edib. - Atam Qarabağ müharibəsi veteranı, ehtiyatda olan polkovnik-leytenantdır. Mən onun davamçısıyam. Ali Baş Komandanın əmri ilə döyüşlərə atılmağa hər an hazıram.

Leytenant Ceyhun Bayramov isə görmədiyi Zəngilan rayonundandır. Valideynləri Bakının Binəqədi rayonunda müvəqqəti məskunlaşıb. Ceyhun elinə-obasına bağlı olan valideynlərinin yurd sevgisini övladlarına da aşılayır. Valideynlərinin torpaq nisgilini uşaq vaxtlarından hiss edib. Müəllim ailəsində böyüyən Ceyhun da vurğuladı ki, atası Kərəm Bayramov və əmiləri 1992-1994-cü illərdə Vətənimizin ərazi bütövlüyü uğrunda gedən ağır döyüşlərdə iştirak ediblər.

Azərbaycan Texniki Universitetini bitirdikdən sonra əvvəlcə əsgər olan Ceyhun orduda zabit kimi xidmətini davam etdirməyi qərara alıb. Hazırda taqım komandiridir. Çətin və məsuliyyətli peşəsinin sirlərini tabeliyindəki şəxsi heyətə həvəslə aşılayan gənc zabitin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad edilməsidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Vətənin cəsur müdafiəçiləri



*Hər bir əsgərin fərdi döyüş hazırlığı komandir üçün önəmlidir. Belə ki, hərbi qulluqçunun xidmət dövründə qazandığı bilik və bacarıqlar onun hazırlıqlı əsgər kimi formalaşmasında mühüm rol oynayır. Bu gün ordumuzda əsgərlərin döyüş və mənəvi hazırlığının artırılmasına çalışan zabitlər şəxsi heyətə hərbi bilikləri öyrətməklə yanaşı, onlara vətənpərvərlik ruhu, döyüş əzmi aşılayırlar.*

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində xidmət edən zabit Səməd Qasımov bildirdi ki, ön xətdə döyüşçülərin daha da sayıq xidmətinin aparılması üçün gərəkli tövsiyələr verir. "Düşmənlə üz-üzə gecə-gündüz döyüş növbəsində dayanan hər bir əsgərin qayğılarına diqqətlə yanaşırıq. Azərbaycan əsgəri Vətəni böyük sevgilərlə, ruh yüksəkliyi ilə qoruyur. Yaxşı bilir ki, mənfur düşmənə qalib gəlmək üçün ilk növbədə hərbi biliklərə dərindən yiyələnmək və döyüş vərdişləri qazanmaq lazımdır."

Həmsöhbətim olan zabit yetərincə döyüş təcrübəsinə malik hərbçidir. Tabeliyində olanlarla vətənpərvərlik mövzusunda sistemli, əhatəli söhbətlər aparan bölmə komandirinin şəxsi heyətlə iş üzrə zabiti hər bir əsgəri ayrı-ayrılıqda dinləyir, qayğı və ehtiyaclarını öyrənir və əlindən gələn köməyi əsirgəmir.

Əsgər Elvin Əmrahov hərbi xidmətə Bakının Qaradağ rayonundan çağırılıb, bir ilə yaxındır düşmənlə təmas xəttində xidmət edir. Əsgər deyir ki, manqada olan bütün atıcı silahlarla bağlı müfəssəl biliklərə yiyələnib. Qazandığı hərbi vərdişlərə görə komandirlərinə minnətdarlıq edən döyüşçü deyir ki, başlıca məqsədimiz torpaqlarımızı işğaldan azad etməkdir. "Bunun üçün biz əsgərlər də hər an döyüşə hazırıq və ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün Ali Baş Komandanın əmrini gözləyirik."

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrdə irimiqyaslı təlimlər keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, noyabrın 12-dən 18-dək səhra şəraitində qoşunların və silahların idarəolunması sisteminin yoxlanılması məqsədilə Silahlı Qüvvələrdə irimiqyaslı təlimlər keçiriləcək.

Təlimlərə 60 mindən artıq şəxsi heyət, 50-dən çox təyyarə və helikopter, 150-dən artıq tank və zirehli texnika, eləcə də raket və artilleriya qoşunlarının 700-dək sistemi cəlb ediləcək.

## Erməni tərəfi cəbhədə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirir

Noyabrın 2-nə keçən gecə erməni silahlı bölmələri cəbhənin şimal-qərb istiqamətində yerləşən bölmələrimizin mövqelərini 60 millimetrlik minaatanlardan, qumbaraatanlardan və iriçaplı pulemyotlardan yenə də intensiv atəşə tutub.

Cavab tədbirləri nəticəsində düşmən susdurulub.

Bildiririk ki, qoşunların təmas xəttində vəziyyətin məqsədyönlü şəkildə gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 noyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 18 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Berd rayonunun Ayqedzor, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Ən yaxşı artilleriya taqımı

*Bu günlərdə 2016-cı ilin döyüş hazırlığı planına əsasən, Əlahiddə Ümumqoşun Ordu üzrə "Ən yaxşı artilleriya taqımı" adı uğrunda müsabiqə keçirilib.*



Əvvəlcə müxtəlif artilleriya taqımlarının şəxsi heyətinin sıra baxışı keçirilib. Sonra atəş mövqelərinin tutulması üçün heyətlər silah və texnika ilə birlikdə hərəkət ediblər. Atəş mövqeləri tutulduqdan sonra normativlər qəbul edilib. Normativləri yerinə yetirən şəxsi heyətə yeni atəş mövqelərinin tutulması tapşırığı verilib və artilleriyaçılar yerdəyişmə ediblər. Bununla da müsabiqəyə yekun vurulub. Müsabiqənin şərtlərinə vaxtında və dəqiq əməl edən özüyeriyən haubitsalı artilleriya taqımı birinciliyin qalibi olub.

Qalib artilleriya taqımının komandiri zabit Asim Mirzəli fikirlərini belə ifadə etdi:

- Zabit yoldaşlarımdan Vüsal Hüseynov, Ceyhun Ağayev, Zaur Məmmədov və başqaları ilə birlikdə şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində əlimizdən gələni əsirgəmirik. Taktiki hazırlıq dərslərinin yüksək səviyyədə aparılmasının nəticəsidir ki, şəxsi heyət həm döyüş atışlı taktiki təlimlərdə, həm də yarış və müsabiqələrdə fəal iştirak edərək nailiyyətlər qazanır. Bütün bunların nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu üzrə "Ən yaxşı artilleriya taqımı" adı uğrunda birinciliyin qalibi olduq. Bundan sonra da əsgərlərimizin mənəvi-psixoloji, fiziki və döyüş hazırlıqlarına daha ciddi yanaşacaq, istənilən döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlməyə çalışacağıq.

Nurlan Fətəliyev, Namil Ağayev, Davud Əhmədov, Yaqub Bayramov, Vasif İsaqov, Orxan Abdullayev kimi nümunəvi xidməti ilə seçilən əsgərlərin fikirlərini öyrənmək daha qürurverici idi. Həmsöhbətlərim bildirdilər ki, bu uğurlara komandirlərinin köməyi sayəsində nail olublar. "Əgər keçirilən taktiki hazırlıq dərslərində, məşğələlərdə, təlimlərdə fəal iştirak etməsəydik, müsabiqədə qalib gələ bilməzdik."

Təcrübəli gizirlərdən Ziya Tağıyev, Tərxan Quliyev və Muxtar Məmmədov isə nümunəvi xidmətləri ilə seçilən top komandirləridir. Onların da qələbənin qazanılmasında əməyi böyükdür.

İnanırıq ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti təkcə təlim, yarış və müsabiqələrdə deyil, həm də işğalda olan torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda döyüşlərdə də qalib gələcəklər. Güclü ordunun qələbə əzmli mərd əsgərləri buna qadirdirlər.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Aydın ORUCOVUNDUR**

---

*Nümunəvi xidmət*

# Arzusu peşəkar rabitəçi olmaqdır



*Hərbi xidmətdə də bütün ixtisaslar gərəklidi, birini digərindən ayırmaq mümkün deyil. Qoşunların idarə edilməsində ən etibarlı vasitə isə rabitədir. Müasir ordularda rabitə sistemləri daim yenilənir. Hazırda müharibə şəraitində olan ordumuzda da bu proses uğurla davam etdirilir. Ordumuzun daha da möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür, silahlanmaya müasir texnikalar əlavə olunur. O cümlədən hərbi hissə və bölmələrin yüksək əməliyyat şəraitini təmin etmək üçün müasir rabitə sistemi qurulur.*

Ön xətdə yerləşən "N" hərbi hissəsinin düşmənlə təmas xəttinin lap yaxınlığında yerləşən bölməsinin qərargahında zabit Səməd Qasımov bildirdi ki, ön xətdə yerləşən bölmələrin idarə edilməsində fasiləsiz və davamlı rabitə əlaqəsi təşkil olunub. Sonra o, baş leytenant Səncər İslamovun rabitə əlaqəsinin təşkilində böyük xidmətlərini qeyd etdi, davamlı rabitənin qurulmasında xidmətini yüksək qiymətləndirdi.

Nümunəvi rabitəçilərə gəlincə, əsgər Emin Bəkirovun adını qeyd etdilər. Öyrəndim ki, Emin istifadəsində olan bütün növ rabitə vasitələrinin iş prinsiplərini yüksək səviyyədə mənimsəyib. Bu səbəbdən də o, dəfələrlə təşəkkürə layiq görülüb.

Söhbət açdığımız əsgərlə xidmət yerində görüşdüm. Əsgər Ağdaş rayonunda anadan olduğunu və bir ildən artıqdır xidmət etdiyini bildirdi. Əsgər dedi ki, hərbi xidmətə gəldiyi ilk günlərdə zabitlər ondan hansı ixtisası bacardığını soruşub. Hərbi xidmətdən əvvəl telefon aparatlarının satış mərkəzində işlədiyi üçün rabitə vasitələri barədə müəyyən biliklərə malik olduğunu bildirib. Onu rabitəçi ixtisası üzrə hazırlıq kursuna yazıblar.

Əsgər E.Bəkirovun sözlərinə görə, təlim müddətində öz peşəsi üzrə bilik və bacarıqları yüksək səviyyədə mənimsəyib.

Onu da öyrəndim ki, bu əsgərin ən böyük arzusu rabitə ixtisası üzrə peşəkar hərbçi olmaqdır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

---

*Yeni kitablar*

# "Artilleriyanın Allahı"




*Əməkdar mədəniyyət işçisi, şairə Zəminə Xınalının "Artilleriyanın Allahı" poeması hərbi vətənpərvərlik mövzusunda qələmə alınan maraqlı əsərlərdəndir. Poema görkəmli artilleriya generalı Əlağa Şıxlinskiyə həsr olunub. Əlağa Şıxlinski çar ordusunun məşhur generallarından olub və rus-yapon müharibəsində iştirak edib. Artilleriya ixtisası üzrə mükəmməl bilik və bacarıqları ilə tarixdə iz qoyub. Müasir artilleriya elmində "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" mövcuddur və bütün artilleriyaçılar azərbaycanlı generalın hərb elminə bəxş etdiyi yeniliklərdən bəhrələnirlər.*

Ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görkəmli hərb xadimi Əlağa Şıxlinskinin anadan olmasının 150 illik yubileyinin ölkəmizdə təntənəli keçirilməsi ilə bağlı sərəncamı oldu. Ölkəmizin hər yerində məşhur artilleriyaçının yubileyi ilə bağlı silsilə tədbirlər keçirildi. Onun həyat yolu böyüməkdə olan gənc nəsil üçün böyük örnəkdir.

Zəminə Xınalının "Artilleriyanın Allahı" poemasında xüsusən "Port-Artur" döyüşündə sərkərdənin fəaliyyətindən geniş bəhs edilib. Tam artilleriya generalı Ə.Şıxlinski həm də 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaradılmasında müstəsna xidmətləri olan görkəmli hərb xadimidir.

Dünya şöhrətli general Ə.Şıxlinskinin 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ilə birlikdə Bakının bolşevik-daşnak qüvvələrindən təmizlənməsində də əvəzsiz xidmətləri olmuşdur. Bu məqam poemada xüsusi poetik cizgilərlə oxucunu düşündürür. Poemada yer alan məqamlardan biri də 1920-ci il aprel işğalından sonra görkəmli hərb xadimi Ə.Şıxlinskinin sovet dövrü hərbi fəaliyyətidir.

Ümumiyyətlə, Azərbaycana şan-şöhrət gətirən general Ə.Şıxlinskinin keşməkeşli həyatına, hərb tarixində göstərdiyi şücaətlərə həsr olunan bu poemanın poetik dəyəri əhəmiyyətlidir.

**"Azərbaycan Ordusu"**

*Redaksiyamızın poçtundan*

# Qüdrətli ordumuza qələbələr arzulayıram



*Hörmətli redaksiya! Hər bir Azərbaycan vətəndaşı dövlətimizin təhlükəsizliyinin qarantı olan Azərbaycan Silahlı Qüvvələrinin ilbəil artan gücündən qürur duyur.*



Aprel döyüşlərində ordumuzun bölmələri sübuta yetirdi ki, torpaqlarımızı havadarlarının köməyilə işğal etmiş Ermənistan ordusunu diz çökdürməyə qadirdir. Bir Azərbaycan vətəndaşı olaraq bu gün hər birimiz belə orduya malik olduğumuza görə sevinirik.

Mənim Silahlı Qüvvələrimizlə iftixar hissi keçirməyimin həm də konkret səbəbi var. Artıq bir neçə aydır ki, oğlum Fərid Vilayətoğlu ordu sıralarına çağırılıb və quru qoşunlarına məxsus hərbi hissələrimizdən birində Vətənə övladlıq borcunu verməkdədir.

Mən bir valideyn kimi hərbi xidmətə yola düşəndə Fəridə öyüd-nəsihət vermişdim. Ona tapşırmışdım ki, Vətənin keşiyində durmaq kişi işidir, qoy kişi kimi, bir Azərbaycan vətəndaşı kimi layiqincə xidmət etsin. Vətənimizə layiq əsgər olsun. Öz əsgəri borcuna vicdanla yanaşsın. Komandirlərinin sözünə baxsın, nizam-intizamla verilən tapşırıqları yerinə yetirsin.

Artıq bir neçə dəfə ailəlikcə həmin hərbi hissəyə getmiş, oğlumuzun xidmət etdiyi şəraitlə yaxından tanış olmuşuq. Təbii ki, ölkə rəhbərliyinin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğı barədə kifayət qədər eşitmişdik. Bilirdik ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunu prioritet vəzifə elan edib. Hərbi hissələrimizdə böyük quruculuq işləri aparılıb. Qoşunlarımız ən müasir silah və texnika ilə təchiz edilib. Azərbaycan, həmçinin, özünün müasir müdafiə sənayesini yaradıb. İndi ölkəmiz nəinki müasir silah və texnika istehsalçısıdır, həmçinin, həmin məhsulları xaricə ixrac edir. Bu, doğrudan da, qürurverici amildir. Amma bir var uzaqdan-uzağa eşidəsən, bir də var ki, həmin sevindirici dəyişiklikləri öz gözlərinlə görəsən.

Oğlum Fəridin hərbi andiçmə mərasimində iştirak edərkən gördük ki, ölkəmiz öz ordusunun əsgərlərinin xidmət etməsi və yaşaması üçün necə gözəl şərait yaradıb. Hərbi hissədəki şəraiti gördükdən sonra Azərbaycan övladları üçün belə orduda xidmət etmək, sözün həqiqi mənasında, şərəf işidir. Əsgərlərimizin bacarıqlı, hazırlıqlı və vətənpərvər komandirləri var.

Sentyabr ayında eşitdik ki, Silahlı Qüvvələrdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə "Açıq qapı" günü keçirilir. Ailəlikcə yenə oğlumun xidmət etdiyi hərbi hissəyə yollandıq. Bu dəfə komandanlıq hərbi hissə ilə yaxından tanış olmaq üçün valideyn və qonaqlara hər cür şəraiti yaratmışdı.

Ordumuzun son illərdə nə qədər inkişaf etdiyini bu hərbi hissənin timsalında müşahidə etdik. Əsgərlərin həm xidməti, həm də yaşaması və istirahəti üçün hər bir şərait yaradılıb. Biz əsgər yeməkxanasında olduq, döyüşçülərə verilən yeməklərdən daddıq. Xoşdur ki, evlərdə bişən yeməklərdən yaxşı yemək verirlər əsgərlərə. Onların yataq şəraiti də çox yüksək səviyyədədir, təmiz, səliqəli, işıqlı binalarda qalırlar. Bundan yaxşısını təsəvvür etmək mümkün deyil.

Vətənin müdafiəçiləri üçün yaratdıqları şəraitə görə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova ailəmiz adından öz dərin minnətdarlığımı bildirir, qüdrətli ordumuza qələbələr arzulayıram. Allah Vətənimizi, onun müdafiəçisi olan Silahlı Qüvvələrimizi qorusun!

**Vilayət MƏMMƏDOV,**
**Bakı şəhəri**

---

*Nə üçün XX əsrin sonu XXI əsrin əvvəllərində minlərlə insanın kütləvi qırğını və qətli bütün mənəvi, əxlaqi və siyasi kolliziyaların əsas mənbəyinə çevrilib, bütün başqa problemləri ağuşuna alıb? Holokost yəhudi xalqının yaddaşı üçün dəhşətli və dözülməz sözdür. Bu söz vəhşiləşmiş və azğınlaşmış faşist rejimi tərəfindən yəhudi xalqının alçaldılması, kütləvi surətdə məhv edilməsi, onun olmazın əzablara, vəhşiliklərə, həqarətlərə qatlaşması deməkdir. Biz xalqların öz tarixini, tarixi keçmişini şərh etmək, milli qəhrəmanlarının xatirəsini əbədiləşdirmək kimi suveren hüququna müdaxilə etmirik. Amma görəndə ki, dəhşətli Holokost cinayətlərində əli olan adamlar milli qəhrəmanlara çevrilir, buna susmamalıyıq.*

# Arye Qut: Ermənistanın indiki rəhbərliyi faşistlərə pərəstişə geniş meydan açıb




Bunu Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin başçısı, beynəlxalq münasibətlər sahəsində ekspert Arye Qut Rusiya, ABŞ və Avropa siyasətçilərinin, ictimai xadimlərinin və ekspertlərinin iştirakı ilə antisemitizmə qarşı mübarizəyə dair "Gələcəyi qoruyaq" Birinci Moskva Beynəlxalq Konfransı çərçivəsində "Hakimiyyət, cəmiyyət və antisemitizm" mövzusunda panel iclasında çıxışında bəyan edib.

Arye Qut deyib: "Deyin görək, Kiyev, Xarkov, yaxud Ternopolda antisemit və quldur Stepan Banderanın abidələrinə, lap bu yaxınlarda Yerevanda nasistlərin əlaltısı, faşist və antisemit Qaregin Njdeyə abidə qoyulmasına necə reaksiya verməliyik? Bir ölkə bəşəriyyət əleyhinə cinayətdə müqəssir bilinmiş faşist cinayətkarı öz qəhrəmanı adlandıra bilərmi? Erməni faşisti və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi rüsvayçılıqdır və Holokost qurbanlarının xatirəsinə həqarətdir. Bu, şəxsən mənim ürəyimə, babasının bütün ailəsi Ukraynada faşistlər tərəfindən məhv edilmiş bir insanın ürəyinə çəkilən çalın-çarpaz dağdır. Məhz bu səbəbdən mənim üçün həm də şəxsi faciədir".

İsrailli ekspert vurğulayıb ki, Ermənistanda yəhudilər artıq uzun illərdir mənəvi zorakılığa məruz qalırlar. Bu da özünü antisemit ruhlu kitabların nəşrində, televiziya verilişlərinin hazırlanmasında, habelə Yerevanda Holokost qurbanlarının xatirə lövhəsinin dəfələrlə təhqir edilməsində büruzə verir. A.Qut vurğulayır: "Erməni faşisti və antisemit, general Njdeyə abidə qoyulması bir daha təsdiq edir ki, indiki Ermənistanda həm xalqımızın nümayəndələrini, həm də sovet əsgərlərini məhv etmiş bu faşistlərə pərəstişə geniş meydan açılıb. Onların şərəfinə xatirə sikkələri kəsilir, bədii və sənədli filmlər çəkilir.

Əgər dünya ictimaiyyəti Ermənistanda faşizmin təbliğ olunmasına bundan sonra da sussa, sabah Ermənistan rəhbərliyi Hitlerə də eynən bu cür abidə ucaldacaq. Belə bir məsələni də vurğulamaq lazımdır ki, bu qaniçən faşistlərə pərəstiş hansısa marginal siyasi qruplaşmalar tərəfindən yaradılmır, bu hərəkətlərin ardında dövlət, daha dəqiq desək, indiki Ermənistan Respublikasının rəhbərliyi dayanır".

A.Qutun sözlərinə görə, vəziyyət o yerə çatıb ki, Ermənistanda Kollektiv Təhlükəsizlik haqqında Müqavilə Təşkilatının (KTMT) Akademiyası yaradılandan sonra Ermənistan Müdafiə Nazirliyinin Drastamat Kanayan adına Milli Strateji Araşdırmalar İnstitutu bu yeni strukturla əməkdaşlıq etmək arzusunu bildirib. A.Qut deyib: "Zənnimcə, Ermənistan Müdafiə Nazirliyi nəzdində Milli Strateji Araşdırmalar İnstitutuna 30 mindən çox yəhudi məhv etmiş bir faşistin və antisemitin adı verilirsə, daha bundan o yanı yoxdur. Tarix İkinci Dünya müharibəsi illərində vermaxtın tərkibindəki 20 minlik erməni legionunun qəddarlığını heç vaxt unutmayacaq. Onun təşkilatçılarından biri faşist Njde olub. Burada oturanların çoxu arxiv sənədləri ilə təsdiq edilmiş tarixi faktları yəqin ki, bilmirlər. Minlərlə yəhudinin məhv edilməsində şəxsən iştirak etmiş general Njdenin başçılıq etdiyi erməni legionunun məqsədi yəhudiləri və alman ordusuna digər "yararsızları" yaxalamaq və məhv etmək olub. Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, habelə Qərbi Krımın digər rayonları məhz erməni legionu "sayəsində" yəhudilərdən təmizlənib. Məgər bundan sonra biz müasir Ermənistanda erməni faşistinin və antisemitin milli qəhrəman dərəcəsinə yüksəldilməsinə laqeyd baxa bilərikmi?

Bu gün Ermənistanda Dro və Njde kimi faşistlərin və antisemitlərin təriflərinin hansı məqsədlə göylərə qaldırılmasını erməni ekspertlərindən soruşanda, onlar bildirirlər ki, məqsəd erməni xalqının hərbi vətənpərvərlik ruhunu yüksəltməkdir. Doğrudanmı ermənilərin faşistlərdən başqa qəhrəmanları qalmayıb, məgər Qızıl Ordu sıralarında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən ermənilər olmayıb? Sadəcə başa düşmək lazımdır ki, müasir Ermənistanda faşistlərin və antisemitlərin təriflərinin göylərə qaldırılması Ermənistanın indiki rəhbərliyinin dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. General Njdenin abidəsinin açılış mərasimində Ermənistan Prezidenti Serj Sarkisyanın və müdafiə naziri Seyran Ohanyanın iştirak etmələri faktı təsdiq edir ki, onlar özlərini erməni faşisti və antisemit Njdenin həqiqi və əsl varisləri hesab edirlər. Bu, müasir Ermənistan üçün biabırçılıq və rüsvayçılıqdır. Hesab edirəm ki, Rusiya Yəhudi Konqresi və Holokost məsələləri ilə məşğul olan dünya, o cümlədən Rusiya yəhudi təşkilatları dövlət səviyyəsində həyata keçirilən bu rüsvayçı hərəkətlərə sərt reaksiya verməlidirlər".

Arye Qutun faşistlərin və antisemitlərin şəxsiyyətinin ucaldılması faktları və Ermənistanda müasir antisemitizm metodları barədə çıxışı "Gələcəyi qoruyaq" Birinci Moskva Beynəlxalq Konfransı çərçivəsində keçirilən "Hakimiyyət, cəmiyyət və antisemitizm" mövzusunda panel iclasının iştirakçılarını şoka salıb.

"Holokost" İctimai Fondunun prezidenti Alla Gerber Arye Qutun çıxışına reaksiya verərək bildirib ki, faşistlərin və onların əlaltılarının şəxsiyyətinin ucaldılmasının hər hansı formasını başçılıq etdiyi Fond adından pisləyir. O deyib: "Faşistlərə və onların əlaltılarına, Bandera və general Njde kimi cinayətkarlara abidələrin qoyulması, bu cinayətkarların, faşistlərin və antisemitlərin təriflərinin göylərə qaldırılması və onların milli qəhrəman dərəcəsinə çatdırılması bizlər, "Holokost" Fondunun nümayəndələri üçün yolverilməz haldır. Biz ölkələrin və onların rəhbərliyinin belə hərəkətlərini sərt şəkildə və qətiyyətlə pisləyirik".

**AZƏRTAC**

*Ön xətdə düşüncələr*

# Döyüş növbətçiliyi



Payızın son ayıdı...

Yağış-yağmur yolların insan yükünü azaldıb. Yolçusu olduğum yol yazda-yayda da, payızda-qışda da belədi - ara-sıra gedən-gələn maşınlar yüksəklikdə döyüş növbətçiliyi aparanlarımızın xidmətindədi. Yüksəkliyə can atan könlümdən süzülən misraların cazibəsindəyəm. Bir azdan o misraları baxışıyla, duruşuyla yazdıranların əhatəsində olacam...

Ön xətdə düşüncələr nə qədər incələşirmiş! Bu ovqatı Cəbrayılın Cocuq Mərcanlı kəndində də yaşamışdım. Oradan Lələtəpəyə baxdıqca əlim çatmayan, ünüm yetməyən həsrətimizin ünvanlarından birini gözlərimə, gözlərimdən könlümə köçürmək istəmişdim. Yadıma bir beyt düşmüşdü: "Zülmün (bu anlamda işğalın - R.H.) topu var, gülləsi var, gələsi varsa, haqqın da yenilməz qolu vardır, gücü vardır". O güc Azərbaycan əsgərinin gücüdür!..

Qarşı tərəfi nəzarətdə saxlayan, müşahidə aparan əsgərin "beş addımlığındayam". Diqqətini yayındırmaq istəmirəm; əsgər Vətən üçün baxır, Vətənin gözləriylə baxır. Xırda bir tərpəniş hiss eləsə, müvafiq tədbirlər görüləcək...

Neçə illər bura ermənilərə səngəriydi. Aprel döyüşlərində ermənilikdən təmizləndi, Azərbaycan əsgəri düşməni bu həndəvərlərdən xeyli uzaqlaşdırdı. İndi bura Azərbaycan əsgərinin döyüş səngəridi. Hələlik döyüş səngəridi. Yaxın vaxtlarda buralar səngər olmayacaq, qalib Azərbaycan əsgəri yaxın kəndlərdə yaşayanlar bu gözəlim yüksəkliyin səfasına sığınacaqlar...

Əsgər döyüş növbətçiliyindədi. Son dərəcədə diqqətlidi. Ürəyinin döyüntüləri də baxışlarına cəmləşib; qarşı tərəfə ürəyinin gözüylə baxır. Ürəyiylə görür, ürəyiylə hiss eləyir. O baxışlarda qürur da var. "Vətən, sənin əsgərinəm!" - deyir o baxışlar. O baxışlarda dərуni bir sevgi də var: "Səndən ötrü can verməyə cümlə hazırız, Vətən!". O, baxışlarda bir həsrət də var: Qarabağ həsrətidi bu həsrət, Şuşa, Cıdır düzü, İsa bulağı həsrətidi. O baxışlarda bir istək də var: Xarı bülbülə toxunmaq, Xarı bülbülü qoxumaq istəyi, Xarı bülbülün qənşərində "Şuşanın dağları"nı dinləmək istəyi... Əsgərin döyüş növbətçiliyinin mahiyyəti həm də budur!

Əsgərin döyüş növbətçiliyi şəhidlərimizin ruhuna qardaş hesabatıdı sanki: siz şəhid oldunuz, sizin istəyinizcə xidmət edirik!..

...Döyüş növbətçiliyi dəyişdiriləcək. Bu əsgəri başqa əsgər əvəz eləyəcək. O da səngərdaşının düşündükləri kimi düşünəcək, şübhəsiz. Ön xətdə düşüncələrim bu düşüncələrə köklənib. Bu düşüncələr Vətənə ad olan düşüncələrdi - dönməz, qətiyyətli, çılğın, bir az da kövrək.

...Döyüş növbətçiliyində əsgər olur, Vətən sevgisi olur, bir də hərbi vəzifə. Bu vəhdət həmin əsgər üçün hərbi xidmət deməkdi; Azərbaycan əsgəri hərbi xidmətini layiqincə yerinə yetirir. Döyüş növbətçiliyində də. O yüksəklikdə bu qənaət mənə o qədər bənzərsiz könül xoşluğu verdi ki!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr



MiQ-29 qırıcısı

MiQ-29 (NATO kod. Fulcrum) qırıcısı dördüncü nəsildən olan Rusiya qırıcısıdır. Təyyarənin layihəsi 1972-ci ildə hazırlanıb, ilk nümunəsinin uçuşu 1977-ci ildə həyata keçirilib və Hərbi Hava Qüvvələrinin silahlanmasına 1982-ci ildə qəbul edilib. Qırıcı orta məsafəli və yaxın məsafəli döyüş raketləri ilə manevrli hava döyüşlərində düşməni məhv etməyə qadirdir. MiQ-29 qırıcısı yüksək keyfiyyətli, ikikonturlu borureaktiv mühərriklə təchiz edilib. Aerodinamik tərtibata malikdir. Maşın bort radioelektron cihazlanma, silahlanma, KOLS kvant optik-lokasiyalı optik-elektron nişangah-naviqasiya kompleksi, "Şel-ZUM-1" dəbilqəüstü məqsədgöstərici sistemlə, orta məsafəli "hava-hava" idarəolunan və yaxın məsafəli döyüş raketləri ilə təchiz edilib. İstismarı çox sadədir. Qırıcı müxtəlif hava şəraitində idarə olunan raketlə və bort top atəşi ilə müxtəlif hava hədəflərini məhv etməyə qadirdir. Həmçinin yerin fonunda olmaqla və maneəli şəraitdə də belə vizual görünüş zamanı idarəolunmayan məhvetmə raket vasitələrindən istifadə etməklə yerüstü hədəfləri də məhv edə bilər.

Bu qırıcı Rusiya Hərbi Hava Qüvvələrinin əsas qırıcılarından biri sayılır. 1600 ədəd MiQ-29 qırıcısı müxtəlif modellərlə dünyanın 25-dən çox ölkəsinə ixrac olunur.

Təyyarənin uzunluğu - 17,32 metr, hündürlüyü - 4,73 metr, qanadlarının sahəsi - 38,0 kvadrat metr, ehtiyat yanacağı - 4200 litrdir, maksimal çəkisi isə 18480 kiloqram təşkil edir. Döyüş yüklənməsi 3000 kiloqrama qədərdir. Maksimal sürəti saatda 2450 kilometr, enmə sürəti saatda 235 kilometrdir.

Silahlanmasına birlüləli QŞ-301 (30 mm-li, döyüş dəsti 150 patron, atəş tezliyi dəqiqədə 1500 atışdır) daxildir.

MiQ-29 qırıcısının MiQ-29K çoxməqsədli göyərtə qırıcı-bombardmançı, MiQ-29UB təlim-döyüş, MiQ-29CE hava ərazisində təchizat sistemi ilə birlikdə cəbhə qırıcısı, MiQ-29UBT xüsusi döyüş tapşırıqlarını yerinə yetirmək üçün ikiyerli, elektrodistansion idarəolunan idarəetmə sistemli MiQ-29M modelləri də vardır.



"Skorpion" avtomobili

Rusiyanın quru qoşunlarının tərkibinə "Skorpion LŞA-1" yüngül hücum avtomobili və üstü bərk metaldan hazırlanmış "Skorpion LŞA-2" və zirehli "Skorpion LŞA-2B" avtomobilləri daxil edilib. Bu haqda "Zaşita" korporasiyasının baş direktoru Sergey Staruna məlumat verib. Onun sözlərinə görə, bu yaxınlarda "Skorpion LŞA-2B" avtomobilləri Astraxan ərazisində və Kabardin-Balkar Respublikasının səhralı, qumlu və dağlıq rayonlarında uğurlu sınağı həyata keçirilib. Marşrut 4200 kilometrə qədər olub.

Maşınların üzərində "Kord" pulemyotu, "Plamya" qumbaraatanı olmaqla müxtəlif silahlanma quraşdırmaq olar.

"Skorpion LŞA" avtomobilinin çəkisi 4,5-5 ton, dizel mühərriki isə 166 at gücündədir. Maksimal sürəti saatda 130 kilometrdir. Maşının salonu, yanacaq bakları, akkumulyator batareyası, mühərrik hissəsi zirehlənib. Bu da onu güllələrdən və partlayışdan qorumağa imkan verir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin Diyarbəkir vilayətində güclü partlayış baş verib



Türkiyənin Diyarbəkir vilayətinin Bağlar rayonunda yerləşən polis idarəsi yaxınlığında güclü partlayış baş verib. Hadisə nəticəsində ilkin məlumata görə, altı nəfər yaralanıb. Partlayış ətrafdakı binalara da ziyan vurub.

## İraqın ordusu Mosul şəhərinə hücumları dayandırıb



İraqın hökumət qüvvələri əlverişsiz hava şərti ilə əlaqədar Mosul şəhərinin İŞİD qruplaşmasından azad edilməsi əməliyyatını dayandırıb. Bu barədə İraq ordusunun xüsusi təyinatlı dəstələrinin generalı Heydər Fədil məlumat verib.

Noyabrın 2-də Mosul qum fırtınasının təsirinə məruz qalıb. Nəticədə görmə şəraiti pisləşib, havanın nəmliyi artıb. Bununla əlaqədar hökumət qüvvələri hərbi əməliyyatlara ara verib. Hazırda şəhərdə sakitlik hökm sürür, ara-sıra atəş səsləri eşidilir.

ABŞ kəşfiyyatının məlumatına əsasən, şəhərdə 3,5 mindən 5 min nəfərədək İŞİD yaraqlısı var. Onlar hökumət qüvvələrinə güclü müqavimət göstərməkdə davam edir.

## Yer planetini təhdid edən 15 min böyük asteroid aşkarlanıb



Astronomların son məlumatlarına görə, Yer üçün təhlükəli 15 min böyük asteroid aşkarlanıb. 2013-cü ilin avqustunda cəmi 10 min belə asteroid məlum idi.

Yerətrafı obyektlərin axtarışları davam edir. Bu gün həftədə orta hesabla 30 yeni asteroid tapılır.

Hesablamalara əsasən, diametri 140 metrdən çox olan astroidlərin yalnız 27 faizi elmə məlumudur. ABŞ Konqresi bunu nəzərə alaraq, NASA-dan 2020-ci ilədək belə obyektlərin 90 faizini aşkara çıxarmağı və onların hər birindən irəli gələn potensial təhlükəni müəyyənləşdirməyi tələb edib. Təhlükə həqiqətən mövcuddur. Növbəti böyük astroidin Yerə nə vaxt çatacağını isə heç kəs dəqiq bilmir.

## ABŞ öz yüklərini və hərbi qulluqçularını daşımaq üçün Çexiyadan tranzit kimi istifadə edəcək



Amerika ordusu gələn il öz bölmələrinin yerdəyişməsi üçün Çexiya Respublikasının ərazisindən tez-tez istifadə etmək niyyətindədir. Bu cür əməliyyatların hamısı əvvəlcədən Çexiya tərəfi ilə razılaşdırılacaq. Çexiyalı hərbi qulluqçular da Amerika texnikasının yerdəyişməsində əvvəlkindən çox iştirak edəcəklər. 2017-ci ildə ABŞ-ın birinci hərbi konvoyunun Çexiya ərazisindən keçməsi mart ayına planlaşdırılıb.

## Pakistanın Qadani şəhərindəki gəmi zavodunda baş verən partlayışlarda 18 nəfər həlak olub




Pakistanın Qadani şəhərində gəmi zavodundakı neft tankerində baş verən partlayışlarda 18 nəfər həlak olub, 50-dən çox işçi yaralanıb.

Bununla bağlı Pakistan mətbuatında yayılan məlumatda tankerdə ardıcıl səkkiz partlayış baş verdiyi bildirilir.

Partlayışlar zamanı gəmidə təxminən 100 işçinin olduğu güman edilir. Hazırda 30-dan çox işçinin itkin düşdüyü hesab olunur.

**AZƏRTAC-ın materialları əsasında**



*Uzun sürən çiskinli, yağmurlu havalardan sonra buludlar göy üzündən çəkilmişdi. Günəş sevinclə yer üzünə boylanırdı. Həmin günəşli gündə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin voleybol meydançasında böyük təntənə və canlanma var idi. Təhsil ocağında Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyevin xatirəsinə həsr olunmuş ənənəvi voleybol turniri keçirilirdi. Tədbirin başlamasına az qalırdı. Yarışda iştirak edəcək zabit və kursantlar meydançada öz yerlərini tutmuşdular.*

# Qəhrəmanın xatirəsinə həsr olunmuş voleybol turniri

Hamının intizarla gözlədiyi an gəlib çatdı. Polkovnik-leytenant Kamran Nəsibov şəxsi heyətin voleybol turniri keçirməyə hazır olduğu barədə Hərbi liseyin rəisi polkovnik Rüfət Əmirova məlumat verdi. Hərbi Liseyin rəisi turnir iştirakçıları ilə salamlaşdı, onlara gərgin keçəcək voleybol yarışlarında uğurlar arzuladı. Turnirin əhəmiyyətini vurğulayaraq qeyd etdi ki, belə yarışların keçirilməsi kursantların həm fiziki hazırlığına, həm də hərbi vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir. Əsas məqsədimiz ordumuz üçün bilikli zabitlər hazırlamaqdır.



Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.

Zabit Kamran Nəsibov turnirdə iştirak edən şəxsi heyəti salamladı, qəhrəmanın həyat və döyüş yolundan qısaca danışdı:

- Hörmətli mərasim iştirakçıları! Cəmşid Naxçıvanski adına Hərbi Liseydə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi həmişə hörmətlə anılır. Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyev bir vaxtlar bu təhsil ocağının kursantı olub. O, 1959-cu il yanvarın 9-da Beyləqan rayonunda dünyaya göz açıb. İbtidai təhsilini 3 nömrəli pambıqçılıq sovxozundakı orta məktəbdə alıb. Sonra onun ailəsi Sumqayıt şəhərinə köçüb. Mətləb səkkizinci sinfə qədər təhsilini buradakı 13 nömrəli məktəbdə alıb. Hərbçi olmaq həvəsi onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirib. Təhsilini bitirəndən sonra mülki ixtisas seçib. Müxtəlif təşkilatlarda çalışıb. Əsgəri xidmətini Ukraynada yerinə yetirib. Ordu sıralarından qayıtdıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub. Burada özünü çox bacarıqlı göstərib, dərslərini yaxşı oxuyub, ixtisasını dərindən öyrənməyə çalışıb. Müsbət göstəricilərinə görə "Təhsil əlaçısı" döş nişanı ilə təltif olunub. 1985-ci ildə "leytenant" rütbəsi ilə ali məktəbi bitirib Sumqayıt şəhərindəki 3 nömrəli orta məktəbdə hərbi hazırlıq müəllimi işləməyə başlayıb.

O, 1992-ci ildə Daxili İşlər Orqanlarında xidmətə qəbul edilir. Mətləb Quliyev zabit kimi Daxili Qoşunlarda xidmətə çağırılan gənc əsgərlərə təlim keçib silahların sirlərini və döyüş qaydalarını öyrədirdi. Sonra onu cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birinə göndərdilər. 1992-ci il avqustun 31-də Ağdam istiqamətində ağır döyüşlər gedirdi. Ermənilər strateji əhəmiyyətli yüksəklikləri ələ keçirməyə çalışırdı. Mətləb pulemyotun arxasına keçərək düşmən üzərinə güllə yağdırırdı. Bu atəşlərdən neçə-neçə erməni yaraqlısı yerə sərilirdi. Ermənilər onun pulemyotunun darağında güllənin qurtardığını hiss edərək, bir neçə istiqamətdən hücuma keçirlər. Düşmən atəşindən yanındakı kapitan yoldaşı həlak olur. Mətləb qısa vaxt ərzində pulemyotun darağını dəyişərək atəşə davam edir. Əsgərlərini xilas edir, özü isə qəhrəmancasına həlak olur.

Döyüşlərdə göstərdiyi igidliyə və şücatə görə Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə baş leytenant Quliyev Mətləb Kamran oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Qəhrəmanın adı əbədiləşdirilmişdir. Sumqayıt şəhərindəki 3 nömrəli orta məktəb Mətləb Quliyevin adını daşıyır. Təhsil ocağının önündə onun büstü qoyulub. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub, adına bulaq çəkilib. Biz hamımız qəhrəmanlığı, igidliyi Mətləb kimi oğullardan öyrənməliyik.

Çıxışlar başa çatandan sonra turnirə start verildi. Yarışın ilk oyununda 9-cu və 7-ci bölüklər qarşılaşdı. Kursantlar komandalarının idmançılarını qələbəyə ruhlandırırdılar. İlk qarşılaşmada 9-cu bölüyün kursantları qalib gəldi.

C.Naxçıvanski adına Hərbi Liseyin idman rəisi Fərhad Əliyev söhbət zamanı bildirdi ki, Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyevin xatirəsinə həsr olunmuş voleybol turniri noyabrın 20-dək davam edəcək.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# “Qarabağın danılmaz tarixi” adlı buklet çap olunub




Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və "Qərb-Resurs" Vətəndaş Cəmiyyətinin İnkişafına Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə "Qarabağın danılmaz tarixi" adlı buklet çap olunub.

AZƏRTAC xəbər verir ki, buklet Azərbaycana gələn qonaqlar üçün "Qarabağın danılmaz tarixi" adlı aksiyalarla məlumatlandırma işinin aparılması layihəsi çərçivəsində hazırlanıb.

Bukletin hazırlanmasında əsas məqsəd dünya tarixçilərinin arxiv materiallarına əsaslanaraq "Qarabağın danılmaz tarixi"ni bütün dünyaya çatdırmaq və bununla da bu qədim torpağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha sübut etməkdir.

Azərbaycan, rus və ingilis dillərində çap olunan bukletdə "Qarabağ toponimi", "Artsax toponimi", "Ermənilər Alban deyillər" və "Ermənilərin Azərbaycana gəlişi" adlı yazılarda maraqlı məlumatlar yer alıb. Ən maraqlısı isə odur ki, bu məlumatların bir çoxu elə erməni yazıçılarına istinadən verilib.

Bukletdə, həmçinin, "Türkmənçay" və "Kürəkçay" müqavilələri haqqında da məlumatlar verilib.

# İdman

## Voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının I dövrəsinin ilk turuna yekun vurulub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının I dövrəsinin ilk turuna yekun vurulub.

İlk turda "Lokomotiv" "Nəqliyyatçı"ya (3:0), "Naxçıvan" "Sumqayıt"a (3:0), "Neftçi" MOİK-ə (3:0) qalib gəlib.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Azərbaycan və Naxçıvan Voleybol federasiyalarının birgə təşkil etdiyi çempionat noyabrın 7-dək davam edəcək.

## UEFA Avropa Liqası: “Qarabağ” səfərdə “PAOK”u məğlub edərək qrupda ikinci pilləyə yüksəlib



Noyabrın 4-də Ağdamın "Qarabağ" futbol klubu UEFA Avropa Liqasının qrup mərhələsi çərçivəsində növbəti oyununu keçirib.

Qrup mərhələsinin IV turunda Ağdam təmsilçisi səfərdə Yunanıstanın "PAOK" komandası ilə qarşılaşıb.

Salonikidəki "Tumba" stadionunda keçirilən oyunun ilk hissəsində hesab açılmayıb. İkinci hissəyə daha fəal başlayan "Qarabağ" görüşün 69-cu dəqiqəsində istəyinə çatıb. Miçel topu qapının uzaq küncünə vuraraq hesabı açıb. Qoldan sonra daha da fəallaşan "Atlılar" rəqib qapısı qarşısında dəfələrlə təhlükəli vəziyyətlər yaratsalar da, hesab dəyişməyib. Beləliklə, görüş "Qarabağ"ın 1:0 hesablı qələbəsi ilə başa çatıb.

## Azərbaycan cüdoçuları U-23 Avropa çempionatında güclərini sınayacaqlar



Noyabrın 11-də Təl-Əvivdə 23 yaşadək cüdoçular arasında Avropa çempionatı start götürəcək.

İki gün davam edəcək yarışa Azərbaycan yığması da qatılacaq.

Məşqçilər korpusu İsraildə Mehman Sadıqov, Davud Məmmədsoy (hər ikisi 60 kq), Telman Vəliyev (66 kq), Hidayət Heydərov, Fəqan Quluzadə (hər ikisi 73 kq), Rüfət İsmayılov (81 kq), Firudin Dadaşov, Vasif Sərbətli (hər ikisi 90 kq) və Cəlil Şükürovu (100 kq) sınamağı qərara alıb.

Qitə çempionatında 40 ölkədən 341 cüdoçunun iştirakı gözlənilir.

## UEFA Avropa Liqasında mübarizə aparan klubların gəlirləri açıqlanıb




UEFA Avropa Liqasının 2015-2016-cı il mövsümündə qrup mərhələsinin iştirakçısı olan klubların gəlirləri açıqlanıb.

Avroliqada mübarizəni davam etdirən Azərbaycan klubları 6 milyon 330 min 868 avro qazanıb.

"Qarabağ" klubu 3 milyon 308 min 303, "Qəbələ" isə 3 milyon 22 min 565 avro gəlir əldə edib.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 551
Nüsxə 4650